**M.A.Əhmədov**
***i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti***
**ORCİD 0000-0003-4872-4035**
**D.A.Abdullayev**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***
**dadash0802@gmail.com**

*Məqalə redaksiyaya daxil olub 14.04.2023*
*The article was received by editorial board on 14.04.2023*
*Статья принята к печати 14.04.2023*

# DÖVLƏT PROQRAMLARININ REGİONLARIN İNKİŞAFINDA ROLU

**Xülasə**

*Məqalədə dövlət proqramlarının hansı sahələri əhatə etdiyi, proqramların ayrı-ayrılıqda regionların inkişafına necə tekan verdiyi və regionların yanı sıra ölkənin sosila-iqtisadi inkişaf strategiyasının önəmindən bəhs edilmiştir. Habelə, ötən dövrlər ərzində mövcud olan 3 əsas dövlət proqramı analiz edilmiş, proqramların mövcudlugu zamanı regionlarda sosial-iqtisadi yüksəlmə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, investisiya qoyuluşunun artması, yeni müəssisələrin, iş yerlərinin açılması və nəticədə, əhalinin məşğulluğunun artırılması hadisələri müşahidə edilmiştir.*

***Açar sözlər:*** *dövlət proqramları, regionlar, inkişaf, sosial-iqtisadi inkişaf, investisiya.*

## GİRİŞ

Hər ölkədə olduğu kimi Azərbaycan Respublikasında da, ölkə ərazisinin umumi regionlarına tətbiq edilən dövlət proqramları, həmin regionların ayrı-ayrılıqda sosial və iqtisadi cəhətdən inkişaf etməsinə ,bununla yanaşı ayrı-ayrı reginlardakı inkişafın ölkənin umumi iqtisadiyyatına müsbət cəhətdən təsir etmənin ən effektiv yolu hesab olunur.Hər müstəqilliyini elan edən ölkələr torpaq bütünlüyünü qorumaqla yanaşı ilk növbədə iqtisadi qalxınma stratejisinə gedir və bu reginların inkişafını sürətləndirəcək 1-3 il arasında həyata keçirilməsi nəzərdə tutulan dövlət proqramları vasitəsiylə olur.

Azərbaycan Respublikasında uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyası ölkə regionlarının inkişafını özündə ehtiva edir. Ölkənin qeyri-neft sektoru bundan sonra da davamlı şəkildə inkişaf edəcək, regionlarda göstərilən kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyəti, sahibkarlıq mühitinin inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında əksini tapmış, və bu inkişaflar davam etdiriləcəkdir. Regionların inkişafı və regionların sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar icra edilərək təşəbbüskarlığın artmasına, yeni cəhdlərin, peşə ixtisaslarının inkişafına və beləliklə, əhalinin əməyinin artmasına və yoxsulluq səviyyəsinin azalmasına stimul verdi.

Ümumilikdə Azərbaycanda həyata keçirlən 4 sosial iqtisadi dövlət proqramı(2004-2008, 2009-2013,2014-2018 və 2019-2023 ) ölkəmizin inkişafına təkan verərək kənd təsərrüfatının, sahibkarlığın, neft-qaz sektorunun, sənayenin artıımına böyük təsirlər etmişdir. Belə ki, 2004-2018 – ci illər üzrə aparılan işlər nəticəsində adam başına düşən ümum daxili məhsul 3,3 dəfə artmış, qeyri-neft sektoru və sənaye 2,7 dəfə artaraq iqtisadiyyata öz təsirini vermişdir.Statistik göstəricilərə əsasən 1 miltondan çox iş yerlərinin yaradılması və 200 mindən çox müəssənin yaradılması işsizlik səviyyəsinin azalmasına gətirib çıxarmışdır. Aparılan məqsəd yönlü tədbirlər sayəsində hər dövlət proqramının təşkili və uğurlu fəaliyyəti digər dövlət proqramlarının daha məhsuldar həyata keçirilməsinə zəmin yaradır. Dövlət proqramları dövlətin strategiyası sahəsində həyata keçirildiyindən ölkəmizin regionlarının mövcud potensialından xüsusi ilə işğaldan azad olunmuş ərazilərin həm yer altı sərvət həm bərpa oluna bilən enerji resursların dəyərləndirilməsi özünü yeni nəsil innovativ tədbirlər icrasında göstərəcəkdir.

Dövlət proqramlarının məqsədi ölkənin rifahının yaxşılaşdırılması. ətraf mühitin keyfiyyət standartlarının yaxşılaşdırılması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi əsasında vergilərin artımı ilə dövlət gəlirlərinin artırılması və mövcud resursların səmərəli istifadəsinin təşkilidir.

2004-2008- ci illərdə həyata keçirilən dövlət proqramı ərzində dövlətimizin başçısı İlham Əliyev tərəfindən xüsusi nəzarətdə saxlanılaraq sərəncamların imzalanması və icrası üzərində xüsusi diqqət formalaşdırılmışdır. Bu dövlət proqramı ərzində çox saylı müəssələr yaradılmış və təməl qoyma fəaliyyətləri həyata keçirilmişdir. Aşağıdakı qrafikdə respublikada 19 il ərzində prezident tərəfində təməl qoylmuş müəssə sayı göstərilmişdir. Qrafik 1-dədə görsəndiyi kimi 2004-cü ildə 494 təşkil etdiyi halda növbəti illərdə bu rəqəm 1292 ,1821 və 2200 təşkil etmişdir. İşğaldan azad edilmiş ərazilərdə quruculuq fəaliyyətinin həyata keçirilməsinin diqqət mərkəzində saxlamalıyıq Qarabağ iqtisadi rayonlarının hazırda hansı sayda müəssənin və ya infrasturukturun dəqiq demək mümkün deyil çünki statistika komitəsinin rəsmi heç bir məlumat paylaşmayıb lakin təxmin etmək olar ki, bu rəqəmlər 20025-ci ilə qədər 3000- ni keçəcəkdir.

**Qrafik 1. Azərbaycanda 2004 –cü ildə 2019-cu ilə qədər prezident tərəfindən təməli qoyulan müəssələr**




***Mənbə:****(https://youthfoundation.az/wp-content/uploads/2019/04/Regionlarin-inkisafi-Dovlet-Proqram%C4%B1_2019-2023.pdf)*

Ümumilikdə Azərbaycanda 2004-ci ildən bu yana açılmış müəssələrin sayı 50000-ni keçmişdir.

Respublikamızın regionlarının umumi istiqamətdə inkişaf tendensiyası statistik göstəricilər əsasında müqayisə etsək görə bilərik, ki 2004 –ci ildə bu yana əhalinin nominal əmək haqqısı, sənaye obyektləri, kənd təsərrüfat məhsulların dəyəri, bitkiçilik və heyvandarlıq məhsullarının dəyərində artımın və istehsalının yüksəldiyini görə bilərik. Cədvəl 1-də Azərbaycan respublikasında hazırda fiziki və hüquqi olmaqla 1336661 min təsərrüfat subyekləri fəaliyyət göstərir bunun 429696 –sı Bakı şəhərinin digər hissəsi isə regionların payına düşür, işçilərin nominal gəlirləri respublika üzrə 57181500,2 min manatdır. Sənaye məhsullarının dəyəri 552290808 olmaqla bərabər, kənd təsərrüfatında 9163378, min manat, heyvandarlıq və bitkiçilik isə 9163378,2 dir

**Cədvəl 1**

**Azərbaycan Respublikası sosial-iqtisadi göstəricilər**

| | 01.01.2022 -ci ilə təsərrüfat subyektlərinin sayı | Muzdlu işçilərin sayı ,min nəfər | Əhalinin nominal gəlirləri min manat | Sənaye məhsulu, min manat | Kənd təsərrüfatı məhsulu ,min manat | Bitkiçilik və heyvandarlıq ,min manat | Pərakəndə ticarət dövriyyəsi ,min manat |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 1336661 | 732,1 | 57181500,2 | 55229080,8 | 9163378,2 | 9163378,2 | 16815459 |
| Bakı şəhəri | 429696 | 951,3 | 33640213,4 | 45309744,1 | 115974,2 | 115974,2 | 10187183,1 |

***Mənbə:*** *(https://www.stat.gov.az/source/regions/)*

Həyata keçirilən tədbirlər planının nəticəsini yuxarıdakı cədvəl 1-də aydın şəkildə görə bilərik. Dövlət proqramlarının icrası işsizlik səviyəsinə və əhalinin rifah səviyyəsini tənzimləməsi səbəbi ilə bu hissəyə diqqət yetirək. Qrafik 2-də 2004-cü ildə bu yana açılmış iş yerlərinin sayını görə bilərik. Belə ki, 2004-cü ildə respublika üzrə 766277 iş yerləri olduğu halda 2013 –cü il ərzində ölkə üzrə bu say 1237236 minə qədər olmuş regionların payına isə 884081 min düşür. Növbəti period ərzində yəni 2013-2018-ci illər ərzində 2150856 minə qalxmış, regionlarda isə bu rəqəm 1555994-ə çatmışdır. 2018-2023 –cü illər ərzində dəqiq statistik göstərici olmasada əvvəl ki , illərdə olan artımların nəzərə alınaraq hesablanmışdır ki, 2023-cü ilin sonuna ölkə üzrə iş yerlərinin sayı 2670050 çatacaqdır.

**Qrafik 2. Respublika ərazinsində açılmış iş yerləri 2004-2023 cü illər ərzində ( min, ədəd)**




.

***Mənbə:****(https://youthfoundation.az/wp-content/uploads/2019/04/Regionlarin-inkisafi-Dovlet-Proqram%C4%B1_2019-2023.pdf)*

Dövlət proramları çərçivəsində təyin edilən digər məsələ işçilər üçün müəssələrin açılmasına şərait yaratmaqdır. Dovlət proqramları regionlarda və paytaxtımızda fəaliyyət göstərən müəssələr

üçün vergi güzəştləri, subsidiyalar,qrantlar və güzəştli kreditlər təşkil edərək bu sahəyə təşviq xarəkterli işlər görür. Ələt iqtisadi zonası və Qarabağ iqtisadi zonasını bunlara misal çəkə bilərik belə ki, bu proses xarici investorlar tərəfindən investisiyaların cəlbini rahatlaşdırır və marağını artırmış olur. 2004-cü ildə bu yana yaradılan müəssələrin sayı artır lakin müəyyən dövrlər ərzində problemlərlə qarşılaşaraq bəzi müəssələr fəaliyyətinə xitam verir və ya başqa müəssələr tərəfindən əvəzlənir. Aşağıdakı qrafik 3-də 2004- cü ildə 2023 –cü ilə qədər olan açılmış yeni müəssələrin sayının görə bilərik. 2004 -2008 –ci illərdə ölkə ərazisində 27572 müəssə açılmış bunun 10910-nu regionların payına düşür. Növbəti illərdə yəni 2004-2013-cü illər ərzində müəssələrin sayında artım olmuşdur və beləliklə ölkə ərazisində 28042 yüksəlmiş bunun 112248-i regionların payına düşübdür. 2014-2018 –ci illər ərzində ölkə ərazisində müəssə sayı önəmli dərəcədə artmış burada isə regionların payına 19521 müəssə təşkil edir. 2019-2023-cü illərin statistik göstəriciləri olmasada əvvəlki illərdə ki inkişaf tendensiyasına əsasən deyə bilərik ki, 2023-cü ilin sonuna ölkə ərazisində müəssələrin sayı 56980 təşkil etməsi planlaşdırılır bunun 26789-u regionların tərkibində olacaqdır. Statistik göstəriciləri analiz etdikdə gördük ki, regionlarda müəssələrin açılması digər ərazilərə nisbətən azdır. Bunun başlıca səbəbi investisiyaların Bakı ətrafında cəmlənməsi və bununda regionların inkişafına təsir etməsidir. Lakin qarşıdaki 10 illik ərzində Azərbaycan Respublikasının strateji yol xəritəsinə əsasən Qarabağ iqtisadi rayonlarda yeni müəssələrin açılması ümumi tendensiyaya təsir edəcəkdir.

**Qrafik 3 Azərbaycanda 2004-2023-cü illərdə açılan müəssələr**




***Mənbə:***(https://youthfoundation.az/wp-content/uploads/2019/04/Regionlarin-inkisafi- Dovlet-Proqram%C4%B1_2019-2023.pdf)

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə yəni Qarabağ iqtisadi zonasının inkişafı və quruculuq işlərinin aparılması üçün 5 prioritet istiqamət təyin edilmiş və təyin edilmiş layihələr 2030-cu ilə qədər başa çatmağı nəzərdə tutulur. Belə ki İlham Əliyev tərəfindən Böyük Qayıdış layihəsinin dövlət proqramına daxil edilməsi və dövlət proqramının icrasının nəzarətə götürülməsi və vaxtaşırı məlumat verilməsi önəmliliyini əks etdirir. Belə ki, Qarabağ iqtisadi zonasının bizim üçün həm mənəvi həm maddi önəminin olması həmçinin bu ərazilərin stratejik olması burada aparılan quruculuq tədbirlərin vacibliyini əks etdirir. Hazırda Şərqi Zəngəzur dəhlizinin bərpasının işləri həyata keçirilən bu tədbirlər Azərbaycanı ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə daha sonra Türkiyə dövləti ilə quru sərhədini təmin etməsi Azərbaycanın transrabitə şəbəkəsinin yaradılması və Avropa ölkələrinə neft və qaz ixracında başlıca kömək olacaqdır.

Dövlət Proqramı istehsal sahəsində regionların inkişafı ilə idarə olunan idarəetmə sistemidir. Bu inkişaf qanunvericilik potensialının, institusional və iqtisadi mexanizmlərin daha da

gücləndirilməsini, investisiya və innovasiya fəaliyyətinin inkişaf etdirilməsini, yerli (təbii-iqtisadi, istehsal-texniki və elmi-texniki) potensialın gücləndirilməsi və tam iqtisadi dövriyyəyə buraxılması, iqtisadiyyatın şaxələndirilməsinin artırılması (məhsul və xidmət sahələrinin başqa üstünlüklə inkişaf etdirilməsi, əlavə dəyər yaradılması), avadanlığın daha da gücləndirilməsi Dövlət proqramlarının həyata keçirilməsinin ardınca getdikcə artan güc idi. Sahibkarların dövlət idarəçiliyi və sahibkarlıq fəaliyyətinin dinamik artımı məşğulluğun 75%-dən çoxu özəl sektor tərəfindən təmin edilib və 2018-ci ildə dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı 950 mini ötüb. 2018-ci ildə bu rəqəmlər ümumi daxili məhsulun 80%-ni ötərək qeydiyyata alınan sahibkarlıq subyektlərinin 66,6 faizi regionların payına düşüb.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatına görə, Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlib. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. (https://e-qanun.az/framework/41320/)

**NƏTİCƏ**

**M**əqalədə dövlət proqramlarının reginlardakı mövcud vəziyyətin nə dərəcədə dəyişdiyini analiz etdik. Araştırma obyektlərimiz son dövlərdəki dövlət proqramları yəni , "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzərində olmuştur. Hal hazırda isə 2019-cu ildə qəbul edilmiş sosial strukturun inkişafı haqqinda dövlət proqramının 2023-cü ilin sonunda başa çatacağı məlumdur.Bunun yanı sıra işğaldan azad olunmuş bölgələrimizin sosial-iqtisadi yaxşılaşmasıda bəhs həmin dövlət proqramları vasitəsiylə əldə olunur.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** 14 avqust 2020-ci il tarixli 1136 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Xalq" qəzeti, 15 avqust 2020-ci il, № 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, № 8, maddə 1039)

**2.** 24 dekabr 2020-ci il tarixli 1217 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti, 26 dekabr 2020-ci il, № 273, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2020-ci il, №12 (I kitab), maddə 1479)

**3.** 29 noyabr 2019-cu il tarixli 871 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Xalq" qəzeti, 30 noyabr 2019-cu il, № 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 11, maddə 1719)

**İnternet resurları**

1. https://e-qanun.az/framework/41320/
2. https://www.stat.gov.az/source/regions/
3. https://youthfoundation.az/wp-content/uploads/2019/04/Regionlarin-inkisafi- Dovlet-Proqram%C4%B1_2019-2023.pdf



**M.A.Ahmadov**
*doctor of economic sciences, professor, Azerbaijan State University of Economics*
**D.A.Abdullayev**
*master student, Azerbaijan State University of Economics*


## The role of state programs in the development of the regions


**Abstract**

*This article discusses the areas covered by the state programs, how the programs contribute to the development of individual regions, and the importance of the socio-economic development*

*strategy of the country as well as the regions. In addition, the 3 main state programs that existed during the past periods were analyzed, the existence of the programs During this period, socio-economic upliftment, further improvement of the entrepreneurial environment, increase in investment, opening of new enterprises and workplaces and, as a result, increase in the employment of the population were observed in the regions.*

***Key words:*** *state programs, regions, development, social and economic development, investments.*

**М.А.Ахмедов**
*д.э.н., профессор, Азербайджанский Государственный Экономический Университет*
**Д.А.Абдуллаев**
*магистрант, Азербайджанский Государственный Экономический Университет*

## Роль государственных программ в развитии регионов

### Резюме

*В данной статье рассматриваются области, охватываемые государственными программами, вклад программ в развитие отдельных регионов, а также значение стратегии социально-экономического развития страны и регионов. Кроме того, были проанализированы 3 основные государственные программы, существовавшие в прошлые периоды, наличие программ в этот период, социально-экономический подъем, дальнейшее улучшение предпринимательской среды, увеличение инвестиций, открытие новых предприятий и рабочих мест и, в результате в регионах наблюдался рост занятости населения.*

***Ключевые слова:*** *государственные программы, регионы, развитие, социально-экономическое развитие, инвестиции.*